1_Layout 1 14.08.2025 8:50 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 15 (703)

15 avqust 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## DÜNYANIN DİQQƏTİNDƏ OLAN SÜLH SAMMİTİ

**“Azərbaycan” qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu “Dünyanın diqqətində olan sülh sammiti” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



### Ağ Evdə Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu

Prezident İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcını qoydu. Regionun lider ölkəsi olan Azərbaycan rəhbərinin dünyanın ən güclü dövləti ABŞ Prezidentinin dəvəti ilə gerçəkləşən və beynəlxalq ictimaiyyətin, medianın nəticələrini diqqətlə izlədiyi, yerli və əcnəbi siyasi ekspertlərin sülhlə bağlı böyük gözləntilərinin olduğu bu vacib səfəri əldə edilən tarixi nailiyyətlər baxımından olduqca zəngin keçdi.

Ölkəsinin ərazi bütövlüyünü, suverenliyini təmin edən qalib lider, eyni zamanda sülh təşəbbüskarı kimi Vaşinqtona səfər edən Prezident İlham Əliyev tarixi sammitdə Azərbaycana həm də qürurlu diplomatiya qələbəsi bəxş etdi. Yürütdüyü qətiyyətli və uzaqgörən siyasət sayəsində ölkəmizi bütövləşdirən Prezident İlham Əliyevin həyata keçirdiyi çevik, zamanın çağırışlarına cavab verən diplomatik siyasətinin nəticəsidir ki, avqustun 8-də Vaşinqton sülh sammitində imzalanan Birgə Bəyannamə məhz Azərbaycanın milli maraqlarının təmini əsasında formalaşdırıldı.

Bir sözlə, Müzəffər Ali Baş Komandan kimi müharibədə qələbə çalaraq tarixi ədaləti təmin edən Prezident İlham Əliyev dünyada əmin-amanlığın və barışın tərəfdarı olaraq sülhü də qazandı.

### Dostluğa dayanan münasibətlər

ABŞ-Azərbaycan əlaqələrinin 33 ildən artıq tərəfdaşlıq tarixi var. Ancaq iki ölkənin münasibətlərinin Prezident Donald Trampın Ağ Evə rəhbərlik etdiyi hər iki dövrdə xüsusilə müsbət istiqamətdə dinamik inkişaf etməyə başlaması da reallıqdır. İki ölkə lideri İlham Əliyev və Donald Tramp arasındakı səmimi münasibətlərdən bəhrələnərək inkişaf edən bu əlaqələr gündən-günə daha da möhkəmlənir. Ölkəmizin başçısının Vaşinqtona səfəri zamanı ABŞ rəhbəri Donald Trampın Ağ Evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim etməsinin özü böyük simvolik məna daşıyır. Bununla Ağ Ev rəhbəri ölkələrimiz arasındakı əlaqələrin yüksək etimada, dostluğa söykəndiyinə işarə vurmaqla yanaşı, həm də İlham Əliyev şəxsiyyətinə olan dərin ehtiramını göstərmiş oldu.

Yeri gəlmişkən, bildirək ki, iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən cənab İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır: “Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, “Vaşinqton bataqlığı”nı dibinə qədər qurutsun”.

ABŞ Prezidenti Donald Tramp özünün “Truth” sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşmışdı.

Gətirdiyimiz bu nümunələr Donald Trampın və İlham Əliyevin bir-birlərinə olan səmimi dostluq münasibətini ortaya qoyan faktlar olmaqla yanaşı, həm də hər iki ölkə rəhbərinin ədalətli, beynəlxalq hüquqa dayanan və sülhü dəstəkləyən mövqe tutmalarını bir daha nümayiş etdirir.

### Strateji tərəfdaşlığa doğru

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri ABŞ-Azərbaycan əlaqələrində yeni və uğurlu gələcəyə hesablanmış səhifələr açır və bu əməkdaşlıq strateji tərəfdaşlığa doğru irəliləyir. Səfər zamanı imzalanmış “Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair Xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu” bunun bariz göstəricisidir.

1992-ci ildə “Azadlığı Müdafiə Aktı” adlı Qanunun 907-ci bölməsinə düzəlişə əsasən, ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərməsi qadağan olunmuşdu. Qərəzli Bayden administrasiyası dövründə 907-ci düzəlişin yenidən canlandırılmasına və bundan ölkəmizə qarşı təzyiq mexanizmi kimi istifadə edilməsinə çalışılmışdı.

Ölkəmizin rəhbərinin ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Tramp tərəfindən “Azadlığı Müdafiə Aktı”na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalandı. Bununla Azərbaycan xalqına qarşı həyata keçirilən 33 illik haqsızlığa son verildi.

### Dayanıqlı sülh

ABŞ Prezidenti Donald Tramp davamlı olaraq Azərbaycanın bölgə ilə bağlı sülh səylərini dəstəkləyir.

Xatırladaq ki, bu ilin iyulunda Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü sülh prosesi istiqamətində atılmış mühüm addım oldu.

Əbu-Dabidə Ermənistan ilə Azərbaycan liderlərinin ikitərəfli görüşündən dərhal sonra ABŞ tərəfindən bölgədə sülh səylərinin dəstəklənməsi ilə bağlı açıqlama verildi. Birləşmiş Ştatların Prezidenti Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağını bildirdi.

Prezident İlham Əliyevin Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə ABŞ-yə tarixi səfəri regional sabitlik baxımından da xüsusi əhəmiyyətə malik oldu. Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Vaşinqton görüşünün nəticəsi olaraq Birgə Bəyannamə imzalandı. Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması üçün İrəvanın Bakının beynəlxalq hüquqa dayanan tələblərini yerinə yetirməsi lazımdır. Bəlli olduğu kimi, Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ölkəmizə qarşı ərazi iddiaları yer alır.

ATƏT-in Minsk qrupunun fəaliyyəti de-fakto dayanıb. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları Birgə Bəyannamədə Minsk qrupunun ləğv edilməsi üçün iki ölkənin ATƏT-in baş katibinə birgə müraciət edəcəyi də təsdiqləndi.

Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən “sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması”nın zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Sənəddə həmçinin Ermənistan ərazisində xüsusi bağlantı layihəsi – “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa, Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

Vaşinqton sülh sammitində Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni paraflanıb. İki ölkə xarici işlər nazirləri tərəfindən sülh müqaviləsinin paraflanması saziş mətninin tərəflər arasında razılaşdırıldığını təsdiq edir.

### Azərbaycanın səyləri ilə

Prezident Donald Trampın iştirakı ilə Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton sülh sammiti əldə olunan tarixi nailiyyətləri ilə yadda qaldı. Vaşinqton sammiti zamanı razılaşmalar əldə edilməsi, Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamə imzalanması, ümumilikdə, Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətində atılmış vacib addım oldu.

Bununla bölgədə ayırıcı xətlər çəkmək istəyən maraqlı xarici qüvvələrin, Ermənistandakı revanşistlərin, erməni lobbisinin, ümumiyyətlə, Azərbaycanın düşmənlərinin də layiqli payı verilərək, yerlərinə otuzduruldular.

Birgə Bəyannamə həm də torpaqlarının işğalı dövründə belə münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarı olan, eyni zamanda Vətən müharibəsindən dərhal sonra Ermənistanla Azərbaycan arasında normallaşmaya, barışa nail olunması üçün mühüm təşəbbüslərlə çıxış edən, bu istiqamətdə əməli addımlar atan Azərbaycanın sülh səylərinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir.

“Azərbaycanla Ermənistan arasında imzalanmış saziş bizim niyyətimizi - sülh istədiyimizi açıq şəkildə nümayiş etdirir”, - deyən Prezident İlham Əliyevin Vaşinqtonda jurnalistlərə müsahibəsində bildirdiyi kimi.



## Nazir Vilayət Eyvazov Astarada növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 29-da və 30-da Astara Rayon Polis Şöbəsinin inzibati binasında növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Astara rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Polis Şöbəsinin inzibati binasında Yardımlı, Astara, Lerik, Masallı, Lənkəran şəhər və rayonlarından qəbula gələn 454 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Lənkəran rayonunda yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 297 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**







2_Layout 1 14.08.2025 8:31 Page 1



## ÇAĞIRIŞÇILAR VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR



Avqustun 9-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı, Naxçıvan şəhərlərində, eləcə də Quba və Hacıqabul rayonlarında yerləşən hərbi hissələrində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimləri keçirilib.



Mərasimlərdə hərbi rituala uyğun olaraq hərbi hissələrin döyüş bayraqları sıra meydanına gətirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayan mərasimlərdə Dövlət Himni ifa edilib. Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.



Mərasimlərdə çıxış edənlər əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etmələrini, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmalarını tövsiyə ediblər.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən gənc əsgərlərin qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, həmçinin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.



Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan gənclərimizin sədaqət hissi ilə döyünən qəlblərinin hər zaman Vətən eşqi ilə alovlanacağına, xidməti-döyüş tapşırıqlarının daha keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətlərini əsirgəməyəcəklərinə, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacaqlarına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar qazanacaqlarına əminlik ifadə olunub.

Mərasimlər şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## YÜKSƏK PEŞƏ HAZIRLIĞI NÜMAYİŞ ETDİRƏN İSTEHKAMÇILAR

16077 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Xüsusi təyinatlı dəstənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı baş çavuş Mais İbrahimov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların tapılaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.



Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş M.İbrahimov ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Hərbi hissənin kimya və mühəndis xidmətinin rəisi mayor Kamran Zalov istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd etdi.

Baş çavuş M.İbrahimov yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Hüseyn Ömərovun və Əzim Vahidovun adlarını qeyd edərək, onların funksional vəzifələrinin icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

**kapitan Şahin Cəfərzadə**

## "HƏR BİR XÜSUSİ TƏYİNATLI ÖZ PEŞƏSİNİ DƏRİNDƏN ÖYRƏNMƏLİ, TƏHKİM OLUNMUŞ SİLAHA MÜKƏMMƏL YİYƏLƏNMƏLİDİR"

Silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində xüsusi təyinatlı dəstələrin həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan 17072 saylı hərbi hissənin xüsusi təyinatlıları da fərqlənirlər.



Hərbi hissənin komandiri polkovnik Emil Rüstəmov xüsusi təyinatlı dəstənin xidməti fəaliyyəti barədə danışarkən bildirdi ki, şəxsi heyət qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hər an hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər.

Polkovnik E.Rüstəmov onu da vurğuladı ki, xüsusi təyinatlı dəstənin fəaliyyəti hərbi hissənin digər bölmələrindən spesifikliyi ilə fərqlənir. Belə ki, təlimlər əsasən çətin iqlim şəraitində təşkil olunub keçirilir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Nadir Şərifov isə şəxsi heyətlə keçirilən təlim-məşqlərin hava şəraitindən asılı olmayaraq, davamlı xarakter daşıdığını dedi. Əlavə etdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili təkmilləşdirilir. Məşğələ mövzularının hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə çoxşaxəli tədbirlər görülür. Onların təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığına xüsusi diqqət yetirilir: "Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər. Hərbi qulluqçulara cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir".



Mayor N.Şərifov diqqətə çatdırdı ki, keçirilən praktiki məşğələlər şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsində çox əhəmiyyətli rol oynayır. O, təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu söylədi. Həmçinin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi məqsədilə bundan sonra da yorulmadan hazırlıqların davam etdiriləcəyini vurğuladı: "Hər bir xüsusi təyinatlı öz peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olunmuş silaha mükəmməl yiyələnməli, əlbəyaxa döyüş fəndlərini mənimsəməli, müxtəlif tapşırıqların yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir".



Qeyd edək ki, xüsusi təyinatlı dəstə birinci yarımilin yekunlarına görə hərbi hissənin dəstələri arasında birinci yeri qazanıb. Şəxsi heyətə bu uğurlarını hər zaman qoruyub saxlamağı arzu edirik.

**kapitan Xədicə Hacızadə**

## KOMENDANT BÖLÜYÜ HƏRBİ HİSSƏNİN ETİBARLI MÜHAFİZƏÇİSİDİR

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə döyüş bayrağının, anbarların, hərbi şəhərciyin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 16073 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti peşəkarlığı ilə fərqlənir.



Bölük komandiri baş leytenant Rüfət Əhmədov üzərilərinə düşən mühüm tapşırıqların əhəmiyyətini diqqətə çatdırdı. Komendant bölüyündə xidmətin şərəfli olduğunu, döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin sayıqlığı və əzmkarlığının vacibliyini xüsusi vurğuladı. Məlumdur ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən bölük komandiri hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Keçirilən nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarığının artırılmasına, dünyagörüşünün genişlənməsinə təkan verdiyini dedi. Həftəlik məşğələ cədvəlinə uyğun olaraq hərbi qulluqçularla atəş hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktiki hazırlığı məşğələləri keçirilir.

Xidmətin təşkilində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri əsas götürülür. Baş leytenant R.Əhmədov komandir kimi şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və intizamının möhkəmləndirilməsi üçün çalışır. Tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını da əsirgəmir.



Hərbi qulluqçuların döyüş təliminin təkmilləşdirilməsi, peşəkarlıqlarının artırılmasında bölük komandirinin müavini baş leytenant Kəşmir Abasovun əməyinin olduğunu xüsusi qeyd edən bölük komandiri onun verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşdığını bildirdi.

Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində, fəalların seçilməsi və təlimatlandırılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Şükür İbrəhimov bacarıqlı zabit kimi üzərinə düşən vəzifələri layiqincə icra edir. O, qarşıya qoyulan tapşırıqların icrası zamanı peşəkarlıq nümayiş etdirir. Qarovul xidmətinə çıxan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili məsələsinin önəmindən danışan baş leytenant Ş.İbrəhimov bunun üçün hərbi hissədə lazımi şəraitin yaradıldığını söylədi. Müxtəlif növ ədəbiyyatların mütaliə olunması, stolüstü oyunların oynanılması da diqqətdən qaçmayan məsələlərdəndir.



Baş leytenant Ş.İbrəhimov bölüyün intizamlı hərbi qulluqçularından gizir Rəşad Mikayılov, baş çavuş İzzət Şahbazov, çavuş Yaqub Nəcəfov, baş əsgər Ruslan Nəsibov, əsgərlər Cavid Bağırov və Qədir Həsənovun adlarını çəkərək onların yoldaşlarına nümunə olduqlarını vurğuladı.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 14.08.2025 8:33 Page 1



# BƏRDƏ ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.



Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

16077 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elxan Babayevin rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi çavuş Rzayev Ceyhun İsmayıl oğlunun Bərdə şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq, hərbi qulluqçularımız tərəfindən şəhidin Bərdə şəhərinin Şəhidlər xiyabanındakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki çavuş C.Rzayev 1994-cü il sentyabrın 16-da Bərdə şəhərində anadan olub. 2012-2014-cü illərdə o, müddətli həqiqi hərbi xidmət keçib. Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 2014-cü ilin iyul ayında 67987 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun 12,7 mm-lik iriçaplı pulemyot yarımqrupunun heyət nəfəri, 2015-ci ilin mart ayında isə həmlə qrupunun atıcısı vəzifələrinə təyin edilib.

O, 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. Şuşa uğrunda gedən şiddətli döyüşdə düşmənin atdığı tank mərmisinin yaxınlığında partlaması nəticəsində ağır qəlpə yarası alıb. Yoldaşları tərəfindən cəsur silahdaşımıza ilkin tibbi yardım göstərilməsinə və nisbətən təhlükəsiz əraziyə təxliyyə edilməsinə baxmayaraq, daxili qanaxma səbəbindən hərbi qulluqçumuz şəhadətə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə çavuş Ceyhun Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Ceyhunun atası İsmayıl Rzayev və anası Mehparə Rzayeva ilə söhbət ediblər. Söhbət zamanı onlar qəhrəman döyüşçümüzün ömür yolu barədə xatirələrini bölüşüblər.

Şəhidin atası qeyd edib ki, Ceyhun çox mehriban və məsuliyyətli bir övlad idi. O, daim ailəsinə qayğı göstərib.

Şəhidin anası M.Rzayeva oğlu barədə fəxarətlə və qürurla danışıb. O, diqqətə çatdırıb ki, övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Ceyhunun torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır.

Polkovnik Elxan Babayev C.Rzayevin və digər şəhidlərimizin fədakarlığını, ölkəmizin Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, ordumuzun həmçinin antiterror tədbirləri nəticəsində öz qüvvəsi və qanı bahasına Qarabağ bölgəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb. O, hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub.

Ümumiyyətlə, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən Rzayevlər ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

# "SOYQIRIMI MEMORİAL KOMPLEKSİ" ZİYARƏT OLUNUB

Hərbi xidmətdə şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə təşkil edilən tədbirlər zamanı hərbi qulluqçular maarifləndirilir, onların dünyagörüşlərinin, mədəni-estetik səviyyələrinin düzgün formalaşması əsas məqsədlər olaraq qarşıya qoyulur.




Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "DİN-in Daxili Qoşunlarında tərbiyə işinin təşkili haqqında" müvafiq direktivinin tələblərinə əsasən, qoşunların Hərbi İnstitutu, hərbi hissə və bölmələrində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının asudə vaxtının səmərəli təşkili xüsusi diqqətdə saxlanılan məqamlardan biridir. Şəxsi heyətin mənəvi tərbiyəsi, ictimai-siyasi biliklərinin artırılması, dövlətçilik təfəkkürünün formalaşdırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzeylərə və sərgi mərkəzlərinə ekskursiyaları maarifləndirici rol oynayır. Daxili Qoşunların hərbi hissələrində belə tədbirlər davamlı olaraq təşkil edilir.



16073 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Azər Paşayevin rəhbərliyi ilə bir qrup şəxsi heyətin Quba şəhərində yerləşən "Soyqırımı Memorial Kompleksi"nə gəzintisi təşkil olunub.

İlk olaraq, hərbi qulluqçuları kompleksin mütəxəssisi Xəyal Nuhbalayev qarşılayaraq, abidə haqqında ətraflı məlumat verib. Bildirilib ki, XX yüzilliyin ən faciəli soyqırımlarından olan 1918-ci il soyqırımı zamanı təkcə Quba qəzasında ermənilər dinc, günahsız türk-müsəlman və qismən də yəhudi əhali olmaqla 16 mindən çox insanın həyatına son qoyublar, 167 kənd isə daşnaklar tərəfindən talanaraq dağıdılıb və yandırılıb.

2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında ermənilər tərəfindən Qubanın müsəlman əhalisinə qarşı törədilmiş soyqırımın əyani sübutu olub. Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci ildə ölkənin bütün hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərin dünya ictimaiyyətinə çatdırılması, gələcək nəsillərin milli yaddaşının qorunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar verilib. 2013-cü ildə kompleksin açılışı olub.

Son olaraq X.Nuhbalayev nitqini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin soyqırım qurbanlarına həsr edilmiş çıxışından bir sitatla bitirib: "Burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir. Onların ermənilər üçün bir günahı var idi ki, onlar erməni millətindən deyildilər".

Hərbi qulluqçularımız ekskursiyadan zəngin təəssüratlarla qayıdıblar.

**kapitan Nigar Ağayeva**

*Şəhidlərimiz*

# VƏTƏNƏ SƏDAQƏTLİ OĞUL KİMİ DÖYÜŞ SINAĞINDAN LƏYAQƏTLƏ KEÇDİ...

Birinci Qarabağ müharibəsi zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları ön cəbhənin bütün istiqamətlərində döyüşlərin od-alovundan keçərək Vətənə, hərbi anda sədaqət, mərdlik və şücaət nümunələri göstəriblər. Şəxsi heyətin sıralarından 682 nəfər şəhidlik zirvəsinə ucalıb. Şəhidlərimizin siyahısında gizir Abdulkərimov İlham İlyas oğlunun da adı qeyd olunub.



İlham 1974-cü il aprelin 3-də Qəbələ rayonunun Nohurqışlaq kəndində doğulub. İlyas Abdulkərimovun və Şamgül Abdulkərimovanın altı övladından biri kimi mehriban, eləcə də zəhmətkeş ailədə boya-başa çatıb. Bir qardaşı və dörd bacısı var. Atası uzun müddət traktorçu, anası isə kənd təsərrüfatında işləyib. Ş.Abdulkərimova ağır xəstəlik səbəbindən 2006-cı ilin avqust ayında dünyasını dəyişib. Valideynlərinin verdikləri tərbiyə İlhamı ləyaqətli, xeyirxah və vətənpərvər oğul olaraq formalaşdırıb.

Doğma kəndindəki tam orta məktəbdə təhsil alıb. Şagirdlər arasında öz ədəb-ərkanı ilə fərqlənib. Fiziki tərbiyə fənni ilə daha çox maraqlanıb, idmanla həvəslə məşğul olub.

Orta məktəbdən sonra İlham aşpaz peşəsinə yiyələnib və bu sahədə fəaliyyət göstərməyə başlayıb. Öz əməyi ilə ailəsinə maddi cəhətdən köməyini əsirgəməyib.

1992-ci ilin iyun ayında İlham DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Öncə 3270 saylı hərbi hissədə (1993-cü ildən 25035 saylı hərbi hissə, hazırda fəaliyyət göstərmir) xidmət edib. Orada hərbi and içib. Maddi-texniki təminat bölüyünün hərbi qulluqçusu kimi ayrı-ayrı vəzifələrdə qarşısına qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib. Müsbət şəxsi keyfiyyətləri və fərdi bacarıqları nəzərə alınaraq növbəti il müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. 25032 saylı hərbi hissədə artilleriya divizionunda minaatan batareyanın başçavuşu vəzifəsinə təyin edilərək, əzmkarlığı ilə ona göstərilən etimadı doğruldub. Sonra İlhama "gizir" hərbi rütbəsi verilib.

1992-1994-cü illərdə 25032 saylı hərbi hissədən döyüş bölgəsinə müntəzəm şəkildə şəxsi heyət göndərilib. İlham ön cəbhəyə getməyə can atıb, döyüş sınağından keçməyi Vətənə oğul borcu hesab edərək, mənəvi-psixoloji cəhətdən özünü buna hazırlayıb.

Birinci Qarabağ müharibəsi qazisi, II dərəcəli əlil, ehtiyatda olan baş çavuş Bəkir İsmayılov İlhamın yaxın silahdaşlarından biri kimi onun haqqında xatirələrini söylədi. Bəkir bildirdi ki, İlhamı 1992-ci ildə hərbi xidmətə başladığı vaxtdan tanıyıb. Onun təmkinli, sözübütöv, yoldaşlıqda etibarlı, intizamlı, cəsarətli, dözümlü və iradəli hərbi qulluqçu kimi yaddaşında qaldığını vurğuladı. Hərbçi şərəfini uca tutduğunu dedi. Qazi məlumat verdi ki, İlham Ağdam, Ağdərə və Füzuli rayonlarının ərazilərində erməni işğalçılarına qarşı vuruşub. Müharibənin hər üzünü görüb, çətin anlarda silahdaşlarına dayaq olub.

1994-cü ilin yanvar ayında Füzuli rayonunun Horadiz qəsəbəsi (hazırda şəhər statusuna malikdir) istiqamətində keçirilmiş uğurlu əks-hücum əməliyyatında İlham qətiyyətlə iştirak edib. Əks-hücum əməliyyatı nəticəsində Füzuli rayonunun bir sıra yaşayış məntəqələri işğalçılardan təmizlənib. Düşmən aldığı zərbədən özünə gələ bilməyib, göstərilən istiqamətdə mühüm mövqelərini itirib.

1994-cü il yanvarın 28-də döyüş mövqeyində torpaqlarımızın müdafiəsində dayanarkən düşmənin atəşi nəticəsində ağır yaralanan gizir İ.Abdulkərimov şəhadətə yüksəlib.

Şəhid hərbi qulluqçumuz Qəbələ rayonunun Nohurqışlaq kəndinin qəbiristanlığında torpağa tapşırılıb. Kəndin Vətən uğrunda döyüşmüş sakinlərindən beş nəfər şəhid olub, iki nəfər isə itkin düşüb.

Nohurqışlaq kənd tam orta məktəbi şəhidin adını daşıyır. Məktəbdə xatirə guşəsi yaradılıb.

1999-cu ildə Bakıda işıq üzü görən, Miri Rəhimovun və Zakir Tahirovun müəllifi olduqları "Üç kəndin ağrıları" kitabında şəhidin ömür yolu haqqında məqalə dərc olunub.

12318 saylı hərbi hissənin ərazisində inşa edilmiş şəhidlər abidəsində İlhamın da adı həkk olunaraq əbədiləşdirilib.

Məqalə üçün məlumatların toplanılmasına köməklik edən şəhidin qardaşı Pünhan Abdulkərimovun sözlərinə görə, İlhamın şəhadətindən uzun illər keçməsinə baxmayaraq, onun əziz xatirəsi heç vaxt unudulmur, daim ehtiramla anılır. Anası ömrünün sonunadək övlad itkisi ilə barışmayıb, həmişə adını səsləndirib, ruhuna dualar oxuyub. Ailənin həyatında bir övlad və qardaş olaraq onun yeri görünür. Doğmaları üçün təskinlik İlhamın Vətəni müdafiə etmək, xalqının qeyrətini qorumaq üçün özünü fəda etməsi və ölümsüzlüyə qovuşmasıdır.

Birinci Qarabağ müharibəsi şəhidləri və qazilərinin davamçıları 44 günlük Vətən müharibəsi, habelə antiterror tədbirləri zamanı "dəmir yumruq" zərbəsi ilə erməni işğalçılarını darmadağın edərək döyüş meydanında möhtəşəm qələbə qazanıblar. Bütün şəhidlərimizin və qazilərimizin qisası alınıb, məcburi köçkünlərimizin üzərilərindən bu ad götürülüb. Bu gün Qarabağ və Şərqi Zəngəzurda müqəddəs üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Şəhidlərimizin ruhları rahatlıq tapıblar. Onlar öz fədakarlıqları ilə neçə-neçə nəslə döyüş ruhu aşılayacaq vətənpərvərlik məktəbi qoyub gediblər.

Şəhidlik məqamına ucalmış İlhamın ürəyi Vətən sevgisi ilə döyünüb. O, son nəfəsinədək Vətənə sədaqətli oğul kimi heç vaxt unudulmayacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# PEŞƏKARLIĞI VƏ ƏZMKARLIĞI İLƏ SEÇİLƏN HƏRBİ QULLUQÇU

17072 saylı hərbi hissənin nümunəvi xidmət edən hərbi qulluqçularından biri baş çavuş Süleyman Mustafayevdir.



Layiqli xidməti, nizam-intizamı ilə yoldaşlarına hər zaman nümunə olan hərbi qulluqçumuz 1989-cu ilin oktyabr ayının 24-də Gədəbəy rayonunun Pərizamanlı kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddə yerləşən Rizvan Abbasov adına tam orta məktəbdə alıb. 2007-ci ildə orta təhsilini tamamlayıb. 2008-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ilin aprelinədək Daxili Qoşunların 67987 saylı hərbi hissəsində hərbi xidmət keçib.

2009-cu ilin aprel ayından isə 17072 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini şərəflə davam etdirir. Müxtəlif vəzifələrin öhdəsindən peşəkarlıqla gəlib. Hazırda xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun iriçaplı pulemyot yarımqrupunun sürücüsüdür. Hərbi qulluqçumuz ixtisas hazırlığının artırılmasına xüsusilə önəm verir. Daim üzərində çalışır, özünə qarşı tələbkardır. Əzmkarlığı, hərbi xidmətə və qoyulan tapşırıqların icrasına ciddi münasibətilə seçilir. İntizamlı, işgüzar və bacarıqlıdır. Təhkim olunan avtomobilin texniki xüsusiyyətlərini bilir, nasazlıqlar olduqda dərhal onları aradan qaldırır. Texniki təmir işlərinin aparılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edir.

Dəstə komandiri mayor Nadir Şərifov baş çavuş S.Mustafayevi müsbət xarakterizə edərək, onun keçirilən təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, praktiki fəaliyyət zamanı peşəkarlıq nümayiş etdirdiyini, eləcə də fərdi hazırlığını artırmaq üçün əlindən gələni əsirgəmədiyini söylədi.

Əlavə etdi ki, hərbi qulluqçu komandirlərinin əmrlərini dəqiq və düzgün icra edir, xidməti vəzifələrini vicdanla, müvafiq nizamnamələrin tələblərinə uyğun yerinə yetirir. Bir sürücü kimi xidmət etdiyi dəstənin döyüş hazırlığının qorunub saxlanılmasında özünəməxsus rolu var.

Süleyman hərbi xidməti dövründə yüksək döyüş hazırlığı, nizam-intizamı, nümunəvi xidmətinə görə "Qüsursuz xidmətə görə" 3-cü və 2-ci dərəcəli medallarla təltif olunub, eləcə də hərbi hissənin və dəstənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Qeyd edək ki, baş çavuş S.Mustafayev 2023-cü il sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş lokal xarakterli antiterror tədbirlərində iştirak edib, qarşısına qoyulmuş tapşırıqları məsuliyyətlə yerinə yetirib.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 14.08.2025 8:36 Page 1



# HƏRBİ PSİXOLOGİYA VƏ HƏRBİ QULLUQÇULARDA STRESİN İDARƏ OLUNMASI

### Müasir dövrün görünməyən müharibəsi - Psixoloji cəbhə

Silah səsləri kəsilsə də, hərbi qulluqçuların daxilində bəzən döyüş hələ də davam edir. Bu, sükut içərisində, insanın öz fikirləri və hissləri ilə yaşadığı görünməz bir savaşdır. Məhz bu baxımdan hərbi psixologiya yalnız savaş meydanlarında deyil, həm də insan zehnində gedən mübarizələrin elmidir.



Hərbi psixologiya Silahlı Qüvvələrin şəxsi heyətinin psixoloji vəziyyətini öyrənən, onların stres, qorxu, travma kimi hallarla necə mübarizə apardığını araşdıran tətbiqi bir sahədir. Ən çətin şəraitdə belə hərbi qulluqçuların doğru qərar verə bilməsi, komandaya sadiq qalması və özünü qoruması üçün yalnız fiziki deyil, eyni zamanda psixoloji dözümlülük də vacibdir.

### Hərbi qulluqçuların daxilindəki yük - Stres nədir və haradan gəlir?

Hərbi xidmət zamanı hərbi qulluqçular çoxsaylı psixoloji təzyiqlə qarşılaşırlar: fiziki gərginlik və yuxusuzluq, ailə və sosial mühitdən uzaqlıq, əmrə tabe olma və fərdi azadlığın məhdudluğu, döyüş ehtimalı və təhlükə hissi, silahdaş itkisi və travmatik hadisələr. Bütün bu faktorlar birlikdə hərbi qulluqçularda xroniki stres yarada bilər. Stres orqanizmin mühitə verdiyi müdafiə reaksiyası olsa da, uzun müddət davam etdikdə sağlamlıq və xidmət keyfiyyətinə mənfi təsir göstərə bilər.



### Streslə mübarizədə görünməyən qalxan - Hərbi psixologiyanın rolu

Hərbi psixoloqlar hərbi qulluqçulara yalnız "nəsihət verməklə" kifayətlənmirlər. Onlar sistemli şəkildə psixoloji təlimlər keçir, qrup və fərdi məşğələlər təşkil edir, ekstremal vəziyyətlərə qarşı psixoloji dözümlülük formalaşdırır, travmadan sonra reabilitasiya proqramları həyata keçirirlər. Həmçinin hərbi qulluqçulara özünütənzimləmə texnikaları - nəfəs məşqləri, diqqəti yayındırma üsulları, pozitiv düşüncə vərdişləri öyrədilir. Bu texnikalar sadə görünsə də, həyati məqamlarda hərbi qulluqçuların soyuqqanlı davranmasına şərait yaradır.



### Komanda ruhu və psixoloji dayaq

Stresin azaldılmasında komanda daxilindəki münasibətlər, qarşılıqlı güvən və dəstək çox önəmlidir. Hərbi hissələrdə "tək deyilsən" prinsipi hərbi qulluqçuların daxili rahatlığını və emosional təhlükəsizliyini təmin edən əsas faktordur. Komandir heyətinin empatiyası, ədalətli münasibəti, vaxtında verilən dəstək gərginliyin və qorxunun azalmasında mühüm rol oynayır.

Nəticə olaraq silahı tutan əli güclü edən yalnız əzələ deyil, həm də zehindir. Döyüş meydanında qalib gəlmək üçün hərbi qulluqçu həm fiziki, həm də psixoloji baxımdan hazırlıqlı olmalıdır. Hərbi psixologiya bu hazırlığın görünməyən, amma vacib hissəsidir.

Unutmayaq, görünməyən yara ən gec sağalandır. Bu səbəbdən də ordu təkcə silah və texnika ilə deyil, insan ruhuna diqqət göstərməklə daha güclü olur.

**baş leytenant Fəzail Rzaquliyev**
**16077 saylı hərbi hissənin təlimatçı-psixoloqu**

# TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

17074 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti kapitanı Zaira Sodiyeva şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitar-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



Tibb xidməti kapitanı Z.Sodiyeva bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyatı üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsinin feldşeri gizir Sevinc Qostiyeva, sanitar-təlimatçı - dezinfektoru baş çavuş Məhəmməd Batarayev, həmçinin xüsusi vasitələrin tətbiqi dəstəsinin sanitar-təlimatçısı gizir Daşqın Məmmədov qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Qeyd edək ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir.

Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur.

Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.



16077 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi mayor Elnur Cəfərov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Mayor E.Cəfərov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də bildirdi.

Zabit görülən işlərdə yeməkxana rəisi baş çavuş Fariz Abbasovun zəhmətini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında aşpazlardan Kəmalə Abbasovanın və Gülbahar Yusifovanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# PEŞƏSİNİ SEVƏN KONSERTMEYSTER

Gizir Bəhruz Süleymanov 1987-ci il iyulun 29-da Neftçala rayonunun Xıllı qəsəbəsində doğulub. 1994-2005-ci illərdə həmin qəsəbədə yerləşən Rafiq Gözəlov adına 1 saylı tam orta məktəbdə oxuyub. Həmçinin 2000-2005-ci illərdə rayondakı Camal İsmayılov adına 5 illik Uşaq İncəsənət Məktəbində musiqi təhsili alıb. Həyatda ən böyük arzusu musiqi sənətinin sirlərinə yiyələnmək olub. Müddətli həqiqi hərbi xidmətini 2005-2007-ci illərdə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində keçib. Əsgəri xidmətini bitirdikdən sonra 2008-ci ildə Şuşa Musiqi Kollecinə qəbul olunub. 2011-ci ildə kollecin xalq çalğı alətləri (tar) fakültəsini bitirib.

2013-cü ildən bu günə kimi Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrində həqiqi hərbi xidmətdədir. Hazırda orkestrin konsertmeysteri vəzifəsindədir. Truba (kornet) ifaçısıdır.

Gizir B.Süleymanov xidmətə ciddi münasibətilə seçilir. Nümunəvi göstərici hərbi orkestrin rəisi kapitan Mayıl Mayılov tərəfindən müsbət xarakterizə olunur. İnsani keyfiyyətləri, intizamı, məsuliyyəti, xidmətə davamiyyəti yüksək səviyyədədir.



Truba (kornet) alətində mükəmməl ifa etməyi bacarır, orkestr, solo ifa təcrübəsinə və vacib nəzəri biliklərə malikdir. Öz musiqi alətinin və cavabdeh olduğu əmlakın istismara yararlığını qoruyub saxlamaq hərbi orkestrin konsertmeysterinin funksional vəzifələridir.

**kapitan Nigar Ağayeva**

# YÜKSƏK İCRAÇILIĞI İLƏ SEÇİLƏN RADİOTELEFONÇU

16073 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Pünhan İsmayıllıdır. O, 2006-cı il iyulun 25-də İmişli rayonunun Xobcabanlı kəndində anadan olub. 2012-2021-ci illərdə İmişli şəhər 8 saylı tam orta məktəbdə 9-cu sinfədək təhsil alıb. 2021-ci ildə İmişli Peşə Məktəbinə qəbul olunub. 2023-cü ildə həmin məktəbi aqroservis mütəxəssisi ixtisası üzrə bitirib.

Hələ uşaqlıq illərindən peşəyə dərin marağı olan Pünhan dərzi kimi fəaliyyət göstərib. Özünün dediyinə görə, 14 yaşında idmanın cüdo növü ilə də həvəskar səviyyədə məşğul olmağa başlayıb. Həmçinin valideynlərinə təsərrüfat işlərində hər zaman kömək edib.

2024-cü ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə xidmətə başlayıb. Sonra 25032 saylı hərbi hissənin kiçik mütəxəssis hazırlayan bölməsində rabitəçi ixtisasına yiyələnib. Müvafiq kursu bitirdikdən sonra 16073 saylı hərbi hissədə xidmətini davam etdirir. Hazırda təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsindədir.



Hərbi hissənin təminat bölüyünün komandiri baş leytenant Amin Hüseynli nəzərimizə çatdırdı ki, əsgər P.İsmayıllı olduqca zəhmətkeş, yaşıdlarından fərqli olaraq daha düşüncəli və bacarıqlıdır. Funksional vəzifələrinə məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları layəqətlə yerinə yetirir, xidmətini hərbi nizamnamələrin tələblərinə uyğun təşkil edir. Əsgər yoldaşları arasında hörmət qazanan hərbi qulluqçu həm hərbi hissə komandanlığı, həm də bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16073 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə Quru Qoşunları yeni silah-texnikaları inventarına daxil edib



Türkiyə Quru Qoşunlarının komandanlığı açıqlanmayan sayda silah-texnikanın qəbul fəaliyyətini tamamlayıb. "Poliqon" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, qəbul fəaliyyətləri tamamlanan T-70 çoxməqsədli helikopteri, "Dragoneye-2" termal kamerası, zirehli yanacaq tankeri və 5.56 mm-lik yüngül pulemyot inventara daxil olunub.

### Rusiyanın "Tayfun-PVO" döyüş maşını seriyalı istehsal mərhələsinə keçib



Rusiyanın "Tayfun-PVO" döyüş maşını dövlət sınaqlarını uğurla başa vurub və seriyalı istehsal mərhələsinə keçib. "Poliqon"un xəbərinə görə, bu barədə "Almaz-Antey" konserninin tərkibinə daxil olan "Kupol" zavodunun baş direktoru məlumat verib. "Tayfun-PVO" maşınının əsas vəzifələrindən biri hərbi hissə və bölmələrin, o cümlədən hərəkətdə olan qüvvələrin müdafiəsini təmin etməkdir.

## Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin komandanlığı mayor Müzabil Mehdiyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı kapitan Fuad Kərimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı gizir Sərxan Göyüşova və baş çavuş Orxan Göyüşova **bacılarının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000